

**Ayvazov Həsən Cəlil oğlu**

Həsən Cəlil oğlu Ayvazov 21 avqust 2000-ci ildə Tovuz rayonunun Pələkli kəndində anadan olub. 2006-cı ildə Şəhid Vaqif Rəhmanov adına Pələkli kənd ümumi orta məktəbinə daxil olub, 2015-ci ildə həmin məktəbin 9-cu sinifini bitirən Həsən təhsilini Hacılar kənd tam orta məktəbində davam etdirib. 2018–2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub.

Həsən Ayvazov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün başlanan Vətən müharibəsi zamanı könüllü olaraq Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Həsən Ayvazov noyabrın 22-də şəhid olub. Tovuz rayonunun Pələkli kəndində dəfn olunub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə əsgər Ayvazov Həsən Cəlil oğlu "Vətən uğrunda" medalı ilə təltif edilib.